MƏNİM İLK KİTABIM

5-6 YAŞ



# ULDUZ PƏRİSİ

altun kitab

u 84(5Aze) У92

Günlərin bir günü sayrışan ulduzların arasından dənizə bir işıq zərrəciyi düşdü. O, mavi sulara dəyən kimi dönüb gözəl bir Pəri oldu: Ulduz Pərisi. Qızılısaçlı, şumal dərili Pəri işıq saçır, par-par parıldayırdı.



F. Köçərli adına
Respublika Uşaq
KİTABXANASI
İNV. № 86442
fond 2016

Dənizin dibində cürbəcür canlılar – balıqlar, meduzalar yaşayırdı. Amma bu heyvanların heç biri Ulduz Pərisinin gözəlliyini görə bilmirdi, çünki onun işığından gözləri qamaşır, yaxınlaşa bilmirdilər.





Gözəl Pəri qırmızı mərcandan özünə ev düzəltmişdi. Amma o, həmişə kədərli olurdu. Çünki tək idi, darıxırdı. Onun gözəlliyi heç kimə lazım deyildi. Dərdini yalnız qayalara çırpılan dalğalara söyləyə bilirdi. Bütün duyğularını içində saxlayırdı.





Bir dəfə kor bir balıq Ulduz Pərisinə rast oldu. Gözləri görmədiyi üçün lap yaxına gəldi. Pəri çox sevindi, balıqla söhbət etdi. Onun kor olduğunu biləndə isə məyus oldu. Balıq gülümsünüb dedi: “Sən çox gözəlsən. Bunu bilmək üçün səni görmək heç də vacib deyil. Səninlə danışmaq, ürəyinin səsini duymaq kifayətdir”. Ulduz Pərisi balığın boynunu qucaqlayıb ağladı…



Onlar dostlaşdılar. Balıq hər gün Pərinin yanına gəlir, söhbət edirdi. Pəri ona dənizin dibindəki bitkiləri, canlıları təsvir edir, qayalardan, səmadan, ulduzlardan danışırdı.

Günlərin birində Pəri öz işığını kor balığın gözlərinə verdi. Balığın gözləri açıldı və o, Pərinin nə qədər gözəl olduğunu gördü: Ulduz Pərisi indi işıq saçmırdı, amma xoşbəxt olduğu üçün daha gözəl idi.

Ulduz Pərisi dostlarının – dəniz canlılarının arasında xoşbəxtlik saçırdı.

F. Köçərli adına
Respublika Uşaq
KİTABXANASI
İNV. № 86442





*Reyhan Yusifqızı*

# ULDUZ PƏRİSİ

Bakı, "Altun kitab" nəşrlər evi, 2015, 12 səh.

Rəssamlar: *Elçin Cabarov*
*Səbinə Vəzirova*

MƏNİM İLK KİTABIM
seriyasından olan kitabları
www.mestan.az
saytının "Oxu zalı"nda
dinləyə bilərsiniz.

ISBN 978-9952-24-243-0

© Altun Kitab
www.altunkitab.az